## Regional İqtisadi və maliyyə təşkilatları

## İslam Təşkilatı Konfransı

İSLAM TƏŞKİLATI KONFRANSI (İKT) 57 üzv dövlətdən ibarət olan hökumətlərarası təşkilatdır. Təşkilatın əsas məqsədi, üzv ölkələrdəki xalqların və həmçinin, dünyada bütün müsəlman əhalisinin firavanlığını və inkişafını artırmaq məqsədilə öz səylərini bir araya gətirməklə və vahid səslə maraqlarını qorumaq üçün fəaliyyət etməkdə olan bir qurumdur.

1969-cu il 21 avqust tarixində Əl-Aqsa (Qüds) məscidinə qarşı sionist elementlərinin də tərkib hissəsi olduğu Qüds şəhərində terror əməliyyatının törədilməsindən sonra həmin ilin 25 avqustunda Mərakeşin paytaxtı Rabbat şəhərində İslam Dünyasının liderlərinin toplandığı ilk görüşlə başlamışdır. Bu tədbirdən 6 ay sonra isə 1970-ci ilin mart ayında Jiddə şəhərində İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin ilk toplantısı keçirilmiş və təşkilatın bütün fəaliyyətlərini koordinasiya edən Daimi Baş Katiblik qurulmuşdur. Eyni adlı tədbirin 2 il 6 ay müddətdən sonra İslam Ölkələrində həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi məqsədilə siyasi, iqtisadi, mədəni, elmi və sosial sahələrdə bu ölkələr arasında inkişafın əsas məqsəd daşıdığı Xarici İşlər Nazirlərinin 3-cü iclasında təşkilatın xartiyası qəbul edildi. Bu xartiya altında təşkilatın məqsədləri:

- İslam Ölkələri arasında həmrəyliyin gücləndirilməsi
- İslamda müqəddəs sayılan məkanların qorunmasının koordinasiyası
- Kolonializmin bütün növlərini və millət ayrımcılığının azaldılması və s. kimi

mövzuları tərkibində əks etdirirdi.

Həmçinin, üzv dövlətlər arasında bərabər hüquqa malik olmaq, şəxsi qərarvermə, ərazi bütövlüyünə sadiqlilik sahələrində də razılaşmalar xartiyada öz yerini tutan vacib məsələlərdəndir.

Bununla yanaşı İKT fəaliyyətlərinin daha effektiv və operativ funksiyaya sahib olması üçün üzv dövlətlərin başçılığı altında hər sahədən Nazirlər səviyyəsində Komitələr yaradılmışdır. Əl-Qüds Komitəsi, İnformasiya və Mədəniyyət məsələləri üzrə Daimi Komitə (COMİAC), İqtisadi və Ticari Daimi Komitəsi (COMCEC),

Elmi və Texniki Əməkdaşlığa dair Daimi Komitə (COMSTECH) və İslam Sülh Komitəsi kimi üzv dövlət başçıları tərəfindən idarə edilən qurumlardır. Bundan başqa Fələstin, Əfqanıstan, Kəşmir problemləri kimi mövzuların daxil olduğu 14 komitə də fəaliyyət göstərməkdədir. Əsas ana qurumlarla yanaşı mədəniyyət, elm, iqtisadiyyat, hüquq, maliyyə, idman, texnologiya, təhsil, media, və həmçinin də işəgötürmə, humanitar, sosial sahələrin müxtəlif aspektlərinin daxil olduğu 2-ci dərəcəli təşkilat və orqanlar altında da fəaliyyət göstərilir.

**İKT-nin fəal üzv institutlarından sayılan:**

- İslam ticarət və sənaye palatası İCCİ – üzv dövlətləri arasında ticarətin, sənayenin və əl sənətlərinin inkişafını
- İslam ölkələri paytaxt və şəhərləri təşkilatı - İslam ölkələri paytaxt və şəhərləri arasında həmrəyliyin, milli dəyər və adətlərin, qardaşlığın, dostluğun gücləndirilməsini
- İslam Həmrəylik Oyunları İdman Federasiyası – İdman növlərində gəclər arasında İslam kimliyinin, həmrəyliyin yüksəldilməsini
- Beynəlxalq Aypara İslam Komitəsi – Təbii fəlakətlər və insan əli ilə zərərə uğramış kəslərə tibbi yardımın təmin edilməsini
- İslam Gəmi sahibkarlığı cəmiyyəti – Üzv dövlətlərdə dənizçilik şirkətləri arasında gəlirin artırılması üzrə səylərin birləşdirilməsi və koordinasiyası ilə məşğul olan, dövri dəniz səyahətlərinin təşkilini
- Beynəlxalq Ərəb-İslam Məktəbləri Dünya Federasiyası – dünyadakı bütün Ərəb-İslam məktəblərini təmsil etməkdə və onları dəstəkləmək və yardım etmək
- İslam Bankları beynəlxalq cəmiyyəti – İslam maliyyə qurumları arasında əlaqələrin möhkəmlənməsini, əməkdaşlığın və koordinasiyanın artırılmasını, İslam bank işinin məğzinin və fikrinin yayılmasının inkişafını özünə əsas məqsəd seçmişdir.

Respublikamız bu təşkilata 1992-ci ildən üzv qəbul edilmişdir. Təşkilatın xartiyasında qeyd edildiyi kimi, bütün üzv dövlətlər ərazi bütövlüyü prinsipini qorumaqdadırlar. Bu səbəblə keçirilən bütün tədbir və əldə olunan razılaşma və qanunlar ölkəmizin də ərazi bütövlüyünü nəzərə alaraq fəaliyyət göstərməkdədir.

Son COMCEC toplantısında 23-26 noyabr 2004-cü ildə İstanbul şəhərində keçirilən bu tədbirin yekun sənədlərində də Respublikamıza İqtisadi yardım və ölçülərin götürülməsi təklifləri öz əksini tapmış işğalçı Ermənistanın işğal etdiyi Azərbaycan torpağından geri çəkilməsi məqsədilə qınanmışdır. Həmçinin beynəlxalq təşkilatların məcburi qaçqın və köçkünlərə yardım məqsədilə, humanitar, texniki və iqtisadi yardımın edilməsi tələbində olunmuşdur.

İKT çərçivəsində qəbul edilən və imzalanan iqtisadi, ticari və texniki qanun və sazişlər gələcəkdə tərəflərin iqtisadi-ticari əməkdaşlığı üçün ən vacib məsələlərdən biridir. Bu xüsusda Tripoli şəhərində ilk imzalanan "İqtisadi, texniki və ticari əməkdaşlığa dair ümumi saziş" 41 üzv ölkə tərəfindən imzalanmış və 29 üzv ölkə tərəfindən müxtəlif illərdə ratifikasiya edilmişdir. Sərmayələrin artırılması, qorunması və qarantiyasına dair saziş 30 dövlət tərəfindən imzalanmış və 22 dövlət tərəfindən ratifikasiya edilmişdir. Bundan əlavə, İmtiyazlı Ticarət Sistemı Sazişi 28 dövlət tərəfindən imzalanmış və 14-ü tərəfindən ratifikasiya edilmişdir. İslam dövlət aviasiya şurası qanunu isə 16 üzv tərəfindən imzalanmış və onlardan 10-u tərəfindən ratifikasiya edilmişdir. İslam dövlətləri telekommunikasiya qanunu da 13 ölkə tərəfindən imzalanmış və 11-i tərəfindən də ratifikasiya edilmişdir. Və son olaraq da İslam Ölkələri standartlar və meteorologiya institutu qanunu isə 6 üzv dövlət tərəfindən imzalanmış və 3-ü tərəfindən ratifikasiya olunmuşdur.

Azərbaycan Respublikası heç bir sazişi imzalamayıb.

**İslam Konfransı Təşkilatı (İKT) İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 20-ci Sessiyasının Hesabatı (İstanbul, 23-27 noyabr 2004-cü il)**

2004-cü ilin 23-27 noyabr tarixlərində İstanbulda İslam Konfransı Təşkilatı (İKT) İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 20-ci Sessiyası və onunla paralel olaraq İKT-nın İqtisadi Konfransı keçirilmişdir. COMCEC 1981-ci ildə İKT-nın Məkkədə keçirilmiş 3-cü Zirvə Toplantısında təsis edilmiş, əsas fəaliyyəti isə İKT üzv ölkələri arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi məqsədi ilə müxtəlif proqram və təkliflərin irəli sürülməsi və İKT-nın iqtisadi sahədə qəbul edilmiş qətnamələrinin praktiki yerinə yetirilməsinə

nəzarət etməyə yönəlmişdir.

COMCEC-ın sədri Türkiyə Respublikasının Prezidentidir.

Sessiyanın işinə İKT-nın üzv dövlətləri və İxtisaslaşmış və köməkçi qurumları ilə yanaşı İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı kimi beynəlxalq təşkilatlar qatılanlar sırasında olmuşlar.

Azərbaycan Respublikasını sözügedən tədbirdə Azərbaycan Respublikasının İstanbuldakı Baş Konsulu və Konsulu, İqtisadi İnkişaf Nazirliyinin İqtisadi Siyasət və Proqnozlaşdırılma Departamenti və Xarici İşlər Nazirliyinin İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsi təmsil etmişlər.

COMCEC-ın 20-ci sessiyası iki hissədən ibarət idi. İlk öncə 23-24 noyabr tarixlərində Türkiyə Respublikasının Dövlət Planlaşdırma Təşkilatı Katibinin müavini Əhməd Tıktıkın sədrliyi altında yüksək vəzifəli şəxslərin iclası keçirildi. Tədbirin bu hissəsində Nazirlər sessiyasına təqdim olunması üçün COMCEC-ın gündəlik layihəsi və qətnamə layihələri nəzərdən keçirildi. Eyni zamanda İKT-nın Baş Katibliyi, Statistik, İqtisadi, Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRTCİC), İslam İnkişaf Bankı, Ticarətin İnkişafı üçün İslam Mərkəzi (İCDT), İslam Ticarət və Sənaye Palatasının (İCCİ) hesabatları dinlənildi. Sözügedən qurumların hesabatlarından aydın oldu ki, onların fəaliyyəti İKT üzv dövlətləri arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinə, müvafiq tədqiqatların aparılmasına və aidiyyəti sahələrdə nailiyyətlərin əldə olunması üçün müxtəlif mexanizmlərin işlənib hazırlanmasına yönəlib.

Müzakirələr zamanı müxtəlif mövzular sırasında xüsusi yer İKT-nın İmtiyazlı (Preferensial) Ticarət Sistemi Sazişinə və Fəaliyyət Planının icrasına ayrılmışdır. Səudiyyə Ərəbistan, İndoneziya, İran kimi ölkələr Fəaliyyət Planının icrası prosesində əhəmiyyətli irəliş olmadığını söyləyərək COMCEC-dan sözügedən prosesinin sürətləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi barədə sorğu etdilər.

Güzəştli (Preferensial) Ticarət Sistemi Sazişinin (TPS/OİK) müzakirələrinə toxunaraq qeyd etmək olaraq İKT-nın İnkişaf edən ölkələrin çoxsu sözügedən Sazişə böyük maraq göstərir və digər üzv ölkələri həmin sazişə qoşulmağa dəvət

edirlər. Qabaqcadan qeyd etmək olar ki, Sessiyanın ikinci hissəsi zamanı dörd ölkənin: Suriyanın, Qatarın, Küveytin Ticarət Nazirləri tərəflərindən və Birləşmiş Ərəb Əmrliklərin Ticarət Nazirinin müavini tərəfindən Güzəştli (Preferensial) Ticarət Sistemi Sazişi imzalanmışdır və bununla, sözügedən sazişin imzalamış ölkələrin sayı 28-ə çatmışdır. Onlardan 14-ü TPS/OİK-i ratifikasiya etmişlər. Azərbaycan Respublikası TPS/OİK-i imzalamayıb (fikrimizcə Azərbaycan Respublikasının sözügedən Sazişə qoşulması, İKT-nin üzv dövlətlərinin ticarət potensialını nəzərə alaraq, ölkəmizin beynəlxalq ticarətin həcminin artırılması həmçinin ticarət proseduraların sadələşdirilməsi üçün və gələcəkdə digər Təşkilatlarla Ticarət sahəsində əməkdaşlığa imkanlar yaradacaq).

İndoneziya tərəfi öz çıxışında digər TPS/OİK-i imzalamış ölkələrlə ikitərəfli danışıqların aparılması barədə məlumat verdi və bu sahədə əməkdaşlıq etməyə hazır olmasını vurğuladı. Həmçinin müzakirələr zamanı ticarət maneələrin aradan qaldırılması xüsusi vurğulanmış, Birləşmiş Millətlərin, ASEAN-ın İKT üzv dövlətləri ilə ticarət sahəsində əməkdaşlığa cəlb olunması qeyd edilmişdir

Sessiyada müzakirə olunan maraqlı mövzulardan biri də İKT üzv ölkələrinin Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ilə münasibətlərinə həsr olunmuşdur. COMCEC-ın nümayəndəsi ÜTT və TPS/OİK-lə bağlı real nəticələrin əldə olunmamağının əsas səbəblərindən biri kimi bəzi ölkələrin ticarətin sadələşdirilməsi istiqamətində praktiki addımlar atmağa hazır olmadıqları ilə bağlı olduğunu vurğuladı.

Həmçinin İKT çərçivəsində keçirilməsi nəzərdə tutulan tədbirlər, İKT-ya daxil olan birjaların əməkdaşlığı üçün görüşün keçirilməsi, Elektron ticarət və informasiya texnologiyalarından istifadənin İKT daxili ticarətin inkişafı və təşviqinə təsiri müzakirə olundu. Eyni zamanda ümumi hesabat vahidinin (Dinar misal kimi) İKT regionu ərazisində işlənilməsi məsələsi Səudiyyə Ərəbistan tərəfindən irəli sürüldü. Tədbir iştirakçılarının müvafiq suallarına cavab olaraq, izah edildi ki, ümumi hesabat vahidi Avro kimi deyil, sadəcə bir ümumi hesabatları asanlaşdırmaq üçün bir vahid ola bilərdi. Sözügedən məsələ ilə bağlı real bir nəticə əldə olunmadı.

Tədbirin ikinci hissəsi 25-27 noyabr tarixlərində, Türkiyə Respublikasının Prezidenti cənab Ə.N. Sezerin sədrliyi ilə davam etdi. O, İKT üzv dövlətləri arasında İmtiyazlı Ticarət Sazişinin əhəmiyyətinə xüsusi toxunaraq, onun dünya ticarətinin indiki vəziyyətinə İKT üzv dövlətləri üçün alternativ imkan yaradacağını və bu ölkələrdə həyat səviyyəsinin yüksəlməsinə xidmət edəcəyini söylədi.

Daha sonra İKT-nın Baş Katibi Ə.Belkəziz və İDB-nin Prezidenti Ə.M.Əli çıxış etdilər. Ə.Belkəziz öz çıxışında İKT daxili ticarətin və ümumiyyətlə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün üzv dövlətlər Fəaliyyət Planının (1981-ci ildə İKT-nın 3-cü Zirvə Toplantısında İKT üzv dövlətləri arasında iqtisadi və ticarət əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə qəbul edilib) yerinə yetirilməsinə xüsusi fikir ayırmalı olduqlarını söylədi. Ə.M.Əli öz növbəsində İDB-nin İKT daxili ticarətin artması üçün gördüyü işlər barədə qısa məlumat verdi. O, İDB-nin bu istiqamətdə fəaliyyətinin bundan sonra da davam edəcəyini və üzv dövlətlərlə əməkdaşlığa hazır olduğunu vurğuladı.

Açılış mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti nümayəndə heyətlərinin başçılarını (üzv dövlətlərinin çoxusunuz nümayəndə heyyətlərinə öz ölkələrinin İqtisadiyyat və Ticarət Nazirləri başçılıq edirdi) qəbul etdi.
Sonra iclas Türkiyə Respublikası Turizm Nazirinin sədrliyi ilə davam etdi.
Qeyd olunduğu kimi İKT-nin 4 üzv dövləti İmtiyazlı Ticarət Sistemi Sazişini imzaladı və bundan sonra İKT-nin üzv dövlətlərinin İqtisadiyyat və Ticarət Nazirləri öz sözügedən sahələri üzrə ölkə hesabatlarını təqdim etdilər.

Tədbirin sonunda COMCEC-in hesabatı və qətnamələr nümayəndə heyyətlərinin başçıları tərəfindən soe dəfə nəzərdən keçirilərək qəbul olundu.

COMCEC-in sessiyalarında iki qətnamə qəbul edilir.

Birinci qətnamə üzv dövlətlərin iqtisadi sahədə əməkdaşlığın cari vəziyyəti, İKT-nın köməkçi və ixtisaslaşmış qurumlarının fəaliyyəti qiymətləndirilir və müvafiq tövsiyələr verilir.

İkinci qətnamə isə bəzi islam ölkələrinə iqtisadi yardım barədədir. Bu

qətnamədə Azərbaycan Respublikasına iqtisadi yardım barədə ayrıca bənd də mövcuddur. Sözügedən bəndlə Ermənistanın ölkəmizə qarşı təcavüzü pislənir və İKT-nın üzv dövlətləri, ixtisaslaşmış qurumları, həmçinin beynəlxalq təşkilatlar Azərbaycana humanitar və iqtisadi yardım göstərməyə dəvət olunurlar.

Qeyd olunduğu kimi, COMCEC-in 20-ci Sessiyası ilə paralel olaraq 23-24 noyabr tarixlərində İKT-nın İqtisadi Konfransı keçirilmişdir. Həmin konfransda İKT-nın üzv dövlətlərinin sahibkarları iştirak etmişlər. Tədbirin məqsədləri üzv dövlətlər və sahibkarlar arasında müvafiq əməkdaşlığının, əlaqələrin, məlumat mübadiləsinin genişləndirilməsindən və inkişafından ibarət idi. Tədbirin sonunda İKT-nın İqtisadi Konfransının Biznes Forumun Deklarasiyası qəbul olunmuşdur.